# Ansambl əsərlərin yeri və əhəmiyyəti

**İradə Əhməd qizi Əhmədova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinın*
*baş müəllimi*
**E-mail:** musicland81@rambler.ru

**Rəyçilər:** p.ü.f.d.. dos. K.R. Sədirxanova,
p.ü.f.d., dos. A.F. Aşumova

**Açar sözlər:** tələbə, ansambl, fortepiano, ifaçılıq, musiqi
**Ключевые слова:** студент, ансамбль, фортепиано, исполнительство, музыка
**Key words:** student, ensemble, piano, performance, music

Ansambl ifaçılığının xüsusiyyəti, onun solo ifaçılığından fərqi ondan ibarətdir ki, əldə edilən bədii nəticə bir deyil, bir neçə ifaçı-musiqiçinin yaradıcılıq səylərinin və professional bacarıqlarının bəhrəsidir. A. Qotlib qeyd etdiyi kimi, "müştərək (ifa) çalma solodan ən əvvəl onunla fərqlənir ki, interpretasiyanın həm ümumi planı və həm də bütün xırdalıqları bir nəfər deyil, bir neçə ifaçının düşüncələrinin və yaradıcı fantaziyasının bəhrəsidir və onların birgə səyləri nəticəsində həyata keçirilir. Mətnin ən xırda təfərrüatlarının təhlili və diqqətli analizi sayəsində buna müvəffəq olurlar."

Müəllimin funksiyası da uyğun olaraq dəyişir: artıq texnoloji və metodoloji üsulların öyrənilməsi deyil, bədii surətin aydınlaşdırılması prosesinin təşkilindən ibarətdir. Tələbələrin repetisiya işinin təşkili, tapşırıqların bölüşdürülməsi və onları hazırlamaq metodikasının anlatılması müəllimdən çox böyük təşkilatçılıq enerjisi və təkid tələb edir.

Əsərin bədii məzmununun mənimsənilməsində və onun mahiyyətinin dərki özü özlüyündə mürəkkəb prosesdir, ansambl ifasında isə bir və ya bir neçə tərəf müqabilinin olması bu prosesi daha da mürəkkəbləşdirir. Iş hər bir partiyanın ayrılıqda fərdi sürətdə öyrənilməsi ilə not mətninin bütün xırdalıqlarının və nyuanslarının dərki və təsdiqi ilə başlanır.

Əsər üzərində iş prosesinə bir sıra əsas momentlər daxildir. Onların bəzilərini araşdıraraq: mətn təcəssümünün dürüstlüyü-tərəfdaşların birgə işinin qurulmasının bünövrəsidir. Xüsusilə qeyd etmək lazımdır ki, notların, liqaların, nyuansların, templərin, aqogika və dinamik qeydlərin, ştrixlərin, pedalın dəqiqləşdirilməsi kimi sırf texnoloji iş ilə bərabər əsərin arxitektonikasının, onun dramaturgiyasının, interpretasiya planının, tematik və surət materialının müəyyənləşdirilməsi kimi partituranın musiqi məzmununun tədqiqinə də çox böyük diqqət yetirilməlidir. Ansambl rəhbəri özü çaldığı alətin partiyasını diqqət mərkəzinə çevirməməli, öz diqqətini bütün ansambl iştirakçıları arasında bərabər surətdə bölüşdürməlidirlər.

İşin bu mərhələsində öyrənilən əsərin müəllifi haqqında, onun yaranma tarixçəsi və dövrü haqqında, ideya-bədii və surət xüsusiyyətləri haqqında qısa məlumat vermək lap yerinə düşərdi. Bu növ məlumatlar, tələbənin işini fəallaşdırmaq üçün əlavə materialdır və ifanın xarakteri münasibliyinə nail olmağa kömək edir. Birgə işin ilk günündən (ən əvvəlindən) müəllim ansambl iştirakçılarını yalnız özünü və tərəfdaşını dinləmək bacarığına deyil, həm də dinləyici mövqeyindən çıxış edərək ümumilkdə ansamblı kənardan dinləmək bacarığına müntəzəm sürətdə alışdırmalıdır.

Əsər traktovkasının təbiiliyi və anlaşıqlı, onun dinamik balansı, kulminasiya aydınlığı və interpretasiyanın bir çox başqa komponentləri məhz adi dinləyici mövqeyindən daha doğru müəyyənləşdirilir. Özünü kənardan dinləmək bacarığı solo ifaçılığında da böyük əhəmiyyət

kəsb edirsə də, ansamblist üçün isə, bir sıra spesifik amillərə əsasən, bu başlıca bacarıqlardan biridir. Partiyaların öyrənilməsi və birgə məşqlər zamanı ansambl iştirakçıları, təbii ki, müəllimin rəhbərliyi altında, əsərlərə öz fərdi münasibətlərini müəyyənləşdirirlər, xırdalıqları, templəri, dinamikanı korreksiya edirlər, interpretasiyanın ümumi planını cızırlar, yəni ifaçıların "ahəng yaratmaq" kəlməsilə müəyyənləşdirdikləri işləri görürlər.

Bu dövrdə müəllim tələbələrin yaradıcı təxəyyülünün tam açılmasında ifaçıya imkan verməli, tərəfdaşların yaradıcı cəhdlərini yatışdırmamalı, əksinə, analiz, məntiqi düşüncə, inandırmalar vasitəsilə ən maraqlı, qiymətli olanları seçməli və bununla da, tələbənin müstəqilliyini və fəallığını təşviq etməlidir.

A, Qotlib tamamilə haqlı olaraq qeyd edirdi ki, pianoçu üçün ansambl çalışmaları xüsusi tərbiyəvi əhəmiyyətə malikdir, çünki başqa ixtisaslı musiqiçilər öz alətlərində ifalarını təkmilləşdirməklə bərabər, hələ uşaq yaşlarından orkestr sinfində görüşürlər və kollektiv əməyə, ümumi məsuliyyət hissinə alışırlar. Pianoçular isə öz ifaçılıq məharətini fərdi məşğələlərdə təkmilləşdirirlər və onlara mümkün olan yeganə iş forması kimi alışırlar.

Musiqi ifadə vasitələrinin bəzilərini araşdıraq. Adətən, tələbələr musiqi dilinin ifadəlilik imkanlarına lazımi dərəcədə bələd deyillər. Buna görə də, biz bu imkanlardan natamam istifadənin, nyuansların çalar tədriciliyinə sahib olmamalarının tez-tez şahidi oluruq. Dinamikaya, nyuanslara, kulminasiya quruluşuna düzgün yanaşma elə ilk dərslərdən başlanmalıdır. Qeyd etməliyik ki, tələbələr bütün nyuansların şərti işarələrini və onların ifadələlik dərəcəsini tam aydınlıqla təsəvvür etməlidirlər.

Dinamika haqqında miyanə təsəvvür nəticəsində nyuansların hamarlanması tələbələr arasında çox geniş yayılmış səhvlərdəndir. Məsələn, nadir hallarda tələbə "mezzo forte"-"forte" dinamik sırasını götürərsək, onda kənar "piano" və "forte" nyuanslarının arasındakı səslənmə fərqi aşkar bilinəcək, amma aralıqda qalan "mezzo""-lar isə adətən, qeyri-ifadəli, solğun, fərdiyyətdən məhrum səslənəcəklər. Bu sıranı "pianissimo" və "fortissimo" nyuansları hesabına genişləndirərsək, onda alınan nəticə daha da keyfiyyətsiz ola bilər. Müşahidələr göstərir ki, tələbələr nyuans diapazonunun genişlənmə rezervini bərkdən çalmada gördüklərindən "piano"-ya nisbətən "forte"dən daha çox istifadə edirlər. Bu düzgün deyildir, çünki səslənmə gurluğunun artması, səslənmə palitrasını kasadlaşdıraraq, ifanın kobudluğuna, həddən artıq sərtliyinə və yöndəmsizliyinə səbəb olur. Göstərilən nöqsanın əsas səbəblərindən biri kimi, simli alətlərdə olduğu kimi klavişli alətlərdə də, "piano" çalma səslənməsində müəyyən çətinliklərin olmasını və müxtəlif "piano" səslənmə dərəcələrinə müvəffəq olmaq üçün daha incə ifaçılıq məharətinin çatışmazlığında görürük.

Q. Neyqauz musiqini "səs incəsənəti" kimi müəyyənləşdirəndə qeyd etmişdi ki, fortepianoda söylədiyim hüdudlarda - hələ səs deyil, artıq səs deyil-100 dinamik dərəcəyə müvəffəq olmaq mümkündür. Dinamik diapazonunu genişləndirmək üçün tələbə həm "forte" və xüsusilə də "piano" zonasında səslənmə üzərində işləməlidir ki, "forte" nyuansında isə ifadəli, davamlı (sürəkli) və aydın səslənməyə nail olmağa çalışsın.

Bütün alətlərin birgə səslənməsi, hər birinin ayrılıqda səslənməsinə nisbətən daha qüvvətlidir. Bütün ifaçıların da nyuansın yeni mənası-ansamblın "forte"-si yaranır. Digər dinamik nyuans "piano" haqqında da analoji fikir söyləmək olar. "Subito forte" və "subito piano" ziddiyyətli dinamik qarşılaşdırmalara tələbələrin diqqətini cəlb etmək lazımdır. Göstərilən səslənmə dərəcələrinin dürüst ifasına nail olmaq üçün hərəkət sinxronluğu, səslənmə səviyyəsini ani dəyişmək bacarığı zəruridir. Adətən, "Subito" ərəfəsində ani bir sezura etməyi məsləhət edirlər ki, gözlənilməzlik effekti özünün daha dolğun təcəssümünü tapsın.

İfanın mənalılığı, interpretasiyanın anlaşıqlı və aydan olması çox zaman kulminasiyanın

düzgün ifasından asılıdır. Ansambl işində bu moment böyük əhəmiyyətə malikdir və birgə işin ən mürəkkəb komponentlərindəndir. Səslənmə inkişafının tədriciliyi və ardıcıllığı, onun gərginləşdirilməsi və kulminasiya nöqtəsinə çatdırılması bütün ansambl tərəfdaşlarının birgə səyləri nəticəsində əldə edilir. Nyuans inkişafının diqqətlə izlənilməsi səs gücünün bütün diapazonundan istifadə etməyi, aralıqdakı "səs gurluğu zonalarını" addamamaq imkanı yaradır. Kulminasiyaların ifasında heç də həmişə maksimum səslənməyə nail olmaq lazım deyildir. Hər şey nisbətdə dərk edilir, bəzən kiçik dinamik vasitələr sayəsində əhəmiyyətli ifadəlilik effektinə nail olmaq olur, burada vacib olan kulminasiya nöqtəsini aydın hiss etməkdir, zirvəni görərək qarşıda duran vəzifəni texniki cəhətdən savadlı həyata keçirməkdir.

Ansambl ifaçılığı-dialektik prosesdir. Onun astanasında, oxşarlıq dərəcəsi bir qədər çox və ya az olan yaradıcı fərdiyyətlər durur. Onların təcrübəsi, ifa tərzi, bədii zövqü yüksək qovuşma anında yeganə nəticə ilə əsərin zövqlə ifası ilə tamamlanmalıdır. Bu cür keyfiyyətə nail olma, ansamblın yalnız bütün hissələrinin fəaliyyəti sayəsində vahid bir orqanizm kimi fəaliyyəti nəticəsində mümkündür.

Son illərdə ansambl musiqisinə maraq artmışdır. Bir çox bəstəkar-klassiklər ansambl üçün əsərlərini özlərinin məhrəm düşüncə və duyğuları ilə zənginləşdirirdilər. Ansambl musiqisi sahəsi onlar üçün bir növ sərbəst yaradıcılıq eksperimentlər laboratoriyası idi. Çox hallarda, musiqinin məhz bu "məhrəm" sahəsində onların yaradıcılıq cəhdləri-köhnə kanonların dağıdılması və yeni inkişaf yollarının tapılması – özünü ən çox büruzə verirdi. Bethovenin, Bramsın, Çaykovskinin, Taneyevin və Qlazunovun ansambl əsərləri - onların yaradıcılıqlarının ən qiymətli tərəflərindəndir. Görkəmli musiqi-ifaçıların ansambl musiqisinə marağı da, əsasən, bunula izah olunur.

Ansambl müəlliminin qarşısına sürülən tələblər spesifikdir, ən əvvəl ona görə ki, bu fənn üzrə müəllim bir deyil, bi neçə alətdə ifaçılıqla yaxından tanış olmalıdır. O şərtlə ki, adətən, onlar müəyyən səviyyə çərçivəsində bir-iki alətlə çalmağı bacarmalıdırlar. Ansambl müəllimi birgə ifaçılıq üçün bir-birinə yaraşan (uyğun) tərəfdaşları seçmək qabiliyyətinə malik olmalıdırlar. Müəllimin fəaliyyətində bu momentə etinasız münasibət, ansambl iştirakçılarının təsadüfi tərkibi, nəinki fayda verməz, hətta düzəldilməsi mümkün olmaya ziyan gətirə bilər. Tərəfdaşlar bir-birlərinə, ən əvvəl, texniki hazırlıq dərəcəsinə görə və həm də səslənmə, emosional və s. keyfiyyətlərinə görə uyğun gəlməlidirlər. Bundan başqa rəhbər ilə ansamblistlərin arasında "uyğunluq" amilini unutmamaq lazımdır.

Ansambl birliyi biri tərəfdaşın digərinin bədii sərbəstliyinə xələl gətirməməlidir. Əsil yaradıcı avtoritetə malik müəllimin dərslərində sərbəst musiqi (ifaçılığı) atmosferi hökm sürəcək. Ansambl ifaçılığı qarşısında vəzifələrin həyata keçirilməsi bir sıra spesifik xüsusiyyətlərə malikdir ki, onların əksəriyyəti, birgə ifaçılıq yaradıcılığı və sinxronluğu ilə əlaqədardır. Özü də, xüsusilə qeyd edilməlidir ki, sinxronluq dedikdə, yalnız ritmik uyğunluq nəzərdə tutulmur, bu anlayışa səslənmə, dinamika aqogika çalarları, frazirovka, bütünlüklə bədii məzmun, yəni, musiqi mətninin bütün hissə və hissəcikləri və həmçinin musiqi ifadə vasitələrinin hamısı daxildir. Bundan başqa təcrübə göstərir ki, repertuar seçimi-tədris planı-nə dərəcədə mühümdür.

Tədris planı yaxud proqram mürəkkəbə doğru prinsipinə əsaslanaraq bu və ya digər əsərdə tələbə qarşısında qoyulmuş məsələlərin həllinə yönəlməli, onun yaradıcı fərdiyyətinin açılmasına xidmət etməlidir. Hər bir növbəti əsər musiqi materialının çətinləşməsinə doğru və öncədən əldə edilmiş ansambl ifaçılığı keyfiyyətlərinin təkmilləşməsinə doğru aparmalıdır. Ansambl sinfində tələbələrlə aparılan eksperimenti nümunə kimi göstərir. Eksperimentin mahiyyəti ondadır ki, iki və ya üç duet bir-birindən xəbərsiz eyni bir əsəri öyrənmək tapşırığı alırlar və bir müddət sonra görülmüş işin dinlənilməsi üçün bir yerə çağırılırlar. Ifa əsnasında inter-

pretasiyalarda bir sıra fərqlər onların (ansamblçıların) böyük təəccübünə səbəb olur. Məhz belə halda ifaçılar və müəllim üçün münasib moment düşür ki, əsərin forma təhlilini və musiqi yönümünü, əsərin tərkib hissə və hissəciklərinin müqayisəli analizini, ştrix variantlarını, bu və ya digər cümlənin emosional yükünü müzakirə etsinlər. Bu cür eksperimental dərslər, zənnimizcə, çox faydalıdır, çünki tələbələrin fantaziyasını, yaradıcı maraqlarını oyadır, və tələbələr qarşılarında açılmış geniş fəaliyyət meydanını, uduzanlar olmayan mübarizə meydanına çevirirlər, çünki ümumi işin əhəmiyyəti musiqi həqiqətindədir.

**Məqalənin aktuallığı.** Ansambl əsərləri tələbələrin fortepiano təhsili prosesində vacib rol oynamasını nəzərə alsaq, məqalə aktual hesab edilməlidir.

**Məqalənin elmi yeniliyi.** Ansambl əsərlərin müasir pianoçuların repertuarına daxil edilməsi onunla əlaqədardır ki, bu əsərlər dünya musiqisinin parlaq nümunələridir. Məqalənin elmi yeniliyi də məhz bununla şərtləndirilir.

**Məqalənin praktik əhəmiyyət və tətbiqi.** Məqalədə ansambl əsərlərinin düzgün interpretasiyasının tapılmasında müəllim və tələbələr yararlana bilər.

## Ədəbiyyat

1. Алексеев А.Д. Методика обучения игре на фортепиано. М.,1978.

2. Субботина Е. И. Фортепианный дуэт как коммуникативный феномен, Известия Российского гос. пед. ун-та им. А. И. Герцена, № 152. – СПб., 2012. – с. 147-154.

3. Сохор А. Эстетическая природа жанра в музыке. Л., 1968.

4. Тайманов И. М. Фортепианный дуэт: современная жизнь жанра. Москва: «Международная музыкально-техническая компания», 2011. – №2(6). – с. 44-47.

**И.А. Ахмедова**

## Место и значение ансамблевых произведений

## Резюме

Во время обучения студентов, одно из важнейших мест занимает изучение ансамблевых произведений. Основным музыкальным материалом в изучении этих произведений являются мировые образцы музыкальной литературы. Освоив этот вид музицирования, пианист приобретает определенный профессиональный уровень, что в свою очередь может позволить ему перейти на следующую ступень.

**I.A. Ahmadova**

## Place and meaning of ensemble works

## Summary

During the training of students, one of the most important places is the study of ensemble works. The main musical material in the study of these works are world samples of musical literature. Having mastered this type of music, the pianist acquires a certain professional level, which in turn can allow him to go to the next stage.

**Redaksiyaya daxil olub:** 28.05.2021